POLYNEER
Protection Perfected

POLYNEER MMC
+99450 224 50 30
www.polyneer.az

**TEXNİKİ VƏRƏQ №1520.20.2.25U VER.2**




# UNIFLEX – 150/200
# PVC MEMBRAN 1.5mm/2.0mm

## MƏHSULUN TƏSVİRİ:
Məhsul yüksək keyfiyyətli polivinilxlorid (PVC) qatışıqlarının, texnoloji əlavələrin və mineralların ekstruderlə formalaşdırılması nəticəsində əldə edilən homojen kütlədən ibarətdir. Membranın üst səthi bej rəngdə olub, montaj zamanı mümkün zədələrin tez aşkarlanmasına imkan verən siqnal funksiyası daşıyır. Alt səthi isə qara rəngdədir. Membran müxtəlif qalınlıqlarda istehsal oluna bilər.

## TƏTBİQ SAHƏLƏRİ:
UNIFLEX aşağıdakı sahələrdə hidroizolyasiya məqsədləri üçün istifadə olunur:
- Yeraltı infrastruktur və bünövrə sistemlərinin qorunması.
- İstismar olunan damlar və stilobat konstruksiyalar.
- Tunellər, metro keçidləri və yeraltı avtodayanacaqlar.
- Poliqonlar, çökəkliklər, texnoloji hovuzlar və su anbarları üçün izolyasiya təbəqəsi.

## ÜSTÜNLÜKLƏR VƏ FƏRQLƏNDİRİCİ XÜSUSİYYƏTLƏR:
- Yüksək dartılma və kimyəvi dayanıqlılıq.
- Bioloji təsirlərə qarşı davamlılıq.
- Sadə təmir imkanı və montaj zamanı vizual nəzarəti asanlaşdıran siqnal qatı.
- Geniş rulon ölçüləri – montajın daha sürətli həyata keçirilməsini təmin edir.
- PVC təbəqələrin bir-biri ilə qaynaq olunmasını asanlaşdırmaq üçün səthdə xüsusi istiqamətləndirici xətt mövcuddur.

### LABORATOR SINAQ GÖSTƏRİCİLƏRİ

| Parametr | Alınan dəyər | | |
|---|---|---|---|
| **Parametr** | **1.5mm** | **2.0mm** | **Test Metodu** |
| Görünən qüsurlar | Mövcud deyil | | |
| Nisbi Uzanma | ≥380% | ≥400% | EN 12311-2:2000 |
| Dartılma möhkəmliyi (uzununa) | ≥17 MPa | ≥19 MPa | EN 12311-2:2000 |
| Dartılma möhkəmliyi (eninə) | ≥16 MPa | ≥18 MPa | EN 12311-2:2000 |
| Yırtılma müqaviməti | ≥110 N | ≥130 N | EN 12310-1:1999 |
| Statik deşilmə müqaviməti | ≥20 | ≥25 | |
| Dinamik zərbə müqaviməti | -25°C | -25°C | |

POLYNEER MMC
+99450 224 50 30
www.polyneer.az

| | | | |
|---|---|---|---|
| Mənfi temperaturlarda dinamik deşilməyə qarşı davamlılıq | -30 °C | | EN 495-5:2013 |
| Su keçirməzlik (1 MPa, 24 saat) | Tam | | EN 1928:2000 |
| 80°C-də 6 saat ərzində ölçülərin dəyişməsi | ≤1.5% | | EN 1107-2:2011 |
| Qaynaq tikişinin cırılmaya qarşı möhkəmliyi | ≥300 N/50 mm | | EN 12317-2 |
| Qaynaq tikişinin dartılmaya qarşı möhkəmliyi | ≥610 N/50 mm | | EN 12316-2 |
| Aqressiv mühitlərə davamlılıq (kimyəvi dayanıqlılıq) | NaCl, $Ca(OH)_2$, $H_2SO_3$, $H_2SO_4$, $NaHCO_3$, NaOH | Xassələrin dəyişməsi – ≤10 | EN 1847:2009 |
| Kif göbələklərinə qarşı davamlılıq | 3 baldan artıq deyil | | EN 12225 |
| Sərt əsasda dinamik təzyiqə qarşı davamlılıq (zərbə dayanıqlığı), mm | ***UNIFLEX 150*** | ***UNIFLEX 200*** | |
| | 700mm | 1400mm | |
| Yumşaq əsasda dinamik təzyiqə qarşı davamlılıq (zərbə dayanıqlığı), mm | 1000mm | 1800mm | |
| Potensial istismar müddəti | 100 il | | |

| Göstəricilər | Ölçü vahidi | Yol verilən sapma | Dəyər | |
|---|---|---|---|---|
| Uzunluq | m | ±0,3 | 20 | |
| En | m | ±0,01 | 2.1 | |
| Qalınlıq | mm | ±0,05 | 1,5 / 2,0 | EN 1849-2-2011 |
| Çəki | kg/m² | ±0,1 | 1,95 / 2,60 | EN 1849-2:2011 |

QEYD: Bu texniki məlumatlar laboratoriya sınaqları və istehsal nəzarəti nəticələrinə əsasən təqdim edilmişdir. Şirkət məhsulun texniki göstəricilərində təkmilləşdirmə məqsədilə dəyişiklik etmək hüququnu özündə saxlayır.

## DAŞINMA QAYDALARI:

Məhsulun daşınması yalnız qapalı nəqliyyat vasitələrində, paletlər üzərində, üfüqi vəziyyətdə və bir paletdə maksimum 10 rulon olmaqla, 4 rulon hündürlüyündən artıq olmayacaq şəkildə həyata keçirilməlidir. Tikinti sahəsində materialın iş yerinə daşınması isə zavod qablaşdırmasında, əllə və ya materiala zərər yetirməyəcək mexaniki vasitələrlə aparılmalıdır.

## SAXLAMA ŞƏRAİTİ:

Rulonlar yalnız quru və qapalı anbar sahəsində və ya üzəri örtülü xüsusi ayrılmış açıq ərazilərdə, palet üzərində, zavod qablaşdırmasında, bir paletdə maksimum 10 rulon olmaqla və 4 rulon hündürlüyünü keçməyəcək şəkildə, üfüqi vəziyyətdə saxlanılmalıdır.

## QABLAŞDIRMA HAQQINDA MƏLUMAT:

PVC əsaslı membranlar taxta paletlər üzərində çatdırılır. Hər bir rulon məhsulun daşınma və saxlanma zamanı qorunması məqsədilə şəffaf və ya qeyri-şəffaf polietilen örtüklə qablaşdırıla bilər.